


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 68 (23.230)

13 aprel 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Xanım Valentina Matviyenkonu və nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu, ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə təkan verəcək. Əlaqələr çoxplanlıdır, həyatın, demək olar ki, bütün sahələrini əhatə edir və yaxşı dinamikaya malikdir. Biz siyasi sahədə fəal qarşılıqlı fəaliyyət göstəririk, iqtisadi potensialı artırırıq, uğurla həyata keçirilən iqtisadi, nəqliyyat, energetika sahələrində əməkdaşlıq üzrə bir neçə yol xəritəsi mövcuddur.

Parlamentlərarası münasibətlərdən danışan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko bu əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Sonra Prezident İlham Əliyev Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkoya Azərbaycanın "Dostluq" ordenini təqdim edib.



## Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş tədbir



Dünən Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"na əsasən muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı keçirilən bu tədbirdə əvvəlcə iqtisadiyyat naziri Famil Seyidov çıxış edib. Bildirib ki, 95 illik yubileyini yüksək nailiyyətlərlə qeyd edən Naxçıvana muxtariyyət verilməsi torpaqların müdafiəsi ilə yanaşı, bu qədim diyarın inkişafını da təmin edib.

Qeyd olunub ki, muxtar respublika iqtisadiyyatının inkişafında və sosial-mədəni həyatında əsaslı dönüş mərhələsi ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsi və yorulmaz fəaliyyəti ilə bağlıdır. Belə ki, 1970-1985-ci illərdə muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrində 783 milyon manatlıq əsas fondlar yaradılıb, Araz çayı üzərində Su Elektrik Stansiyası, Alt Trikotaj Məmulatları Fabriki, yeni mineral su zavodu, Şüşə Qablar Zavodu, şərabçılıq müəssisələri tikilib istifadəyə verilib. Ümumiyyətlə, muxtar respublikada 1969-1985-ci illərdə 21 sənaye müəssisəsi tikilib, bir neçə sənaye müəssisəsi əsaslı surətdə yenidən qurulub. Bütün bu genişmiqyaslı tədbirlər nəticəsində muxtar respublikada sənaye məhsulunun ümumi həcmi 1970-ci illə müqayisədə 1985-ci ildə 4,6 dəfə artıb. Həmin dövrdə mühüm sənaye məhsulları istehsalı, o cümlədən elektrik enerjisi 35, ipək xammalı 2,2, konservləşdirilmiş məhsullar 3,5, daşduz 2, mineral sular və şərab məhsulları isə bir neçə dəfə artıb. 1970-1985-ci illərdə muxtar respublikada tikilib istifadəyə verilmiş müəssisələrin 52 faizi yeyinti sənayesinin payına düşüb.

Nazir qeyd edib ki, bu dövrdə kənd təsərrüfatı üzrə də mühüm nailiyyətlər qazanılıb. Belə ki, 1970-ci illə müqayisədə 1985-ci ildə muxtar respublikada üzümlüklərin sahəsi 8,1 min hektardan 13,8 min hektara, meyvə bağlarının sahəsi 1,9 min hektardan 2,6 min hektara, yem bitkilərinin əkin sahəsi 9 min hektardan 13,5 min hektara çatdırılıb.

Vurğulanıb ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Naxçıvan Muxtar Respublikasında da böyük quruculuq proqramı gerçəkləşdirilib, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunub. Belə ki, 1991-ci illə müqayisədə sənaye məhsulunun həcmi 250 dəfə artaraq 990 milyon 67 min manat olub, sənaye müəssisələrinin sayı 46-dan 442-yə çatdırılıb. Nəticədə, 2018-ci ildə muxtar respublikada 383 növdə məhsul istehsal olunaraq 350 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilib. Aqrar sektorun inkişafı məqsədilə dövlət maliyyə dəstəyi ilə 270 heyvandarlıq, 84 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 111 arıçılıq, 74 bağçılıq və 14 balıqçılıq təsərrüfatı yaradılıb.

Ailə təsərrüfatlarının əhəmiyyətinə də diqqət çəkən nazir bildirib ki, son dövrlərdə dövlət tərəfindən bu fəaliyyət sahəsinin təşviqi ilə bağlı addımlar muxtar respublikada belə təsərrüfatların bir hissəsinin kiçik sahibkarlıq subyektlərinə çevrilməsinə zəmin yaradıb. 2018-ci ildə 14 ailə təsərrüfatına 253 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilib. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması bu fəaliyyət sahəsinə marağı daha da artırmaqla, iqtisadiyyata öz töhfəsini verəcəkdir.

Qeyd olunub ki, hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır ki, bu da çox yüksək göstəricidir. 2000-ci ildən ötən müddət ərzində sahibkarların maliyyə resurslarına əlverişli şərtlərlə çıxışının təmin edilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 1271 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 142 milyon 313 min manatdan çox güzəştli kreditlər ayrılıb, sahibkarlıq fəaliyyəti genişləndirilib, muxtar respublikanın xarici ticarət əməliyyatlarının həcmi artıb. Hazırda muxtar respublikada istehsal olunan yeyinti, tikinti, mebel və yüngül sənaye məhsulları 12 ölkəyə ixrac edilir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdir müavini Ədalət Hüseynov bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf strategiyası Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Bunun nəticəsində blokada şəraitinin törətdiyi çətinliklərə baxmayaraq, Naxçıvan iqtisadi və sosial sahədə muxtariyyət tarixinin ən yüksək inkişaf mərhələsinə çatıb.

Qeyd edilib ki, muxtar respublikamızda iqtisadi inkişafa nail olunması əlverişli biznes mühitinin yaradılmasına, yeni müəssisələrin fəaliyyətə başlamasına və iş yerlərinin açılmasına imkan verib. Son illər qabaqcıl texnologiyaya əsaslanan avadanlıqlarla təchiz edilmiş maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılıb. Bütün bunlar isə daxili bazarın qorunmasına və iqtisadiyyatın inkişafına hesablanmış tədbirlərdir.

Vurğulanıb ki, kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə görülən ardıcıl tədbirlər məhsul istehsalının artmasını və məhsuldarlığın yüksəlməsini şərtləndirib.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov çıxış edərək qeyd edib ki, Naxçıvan Muxtar Respublikası bu gün özünün inkişaf dövrünü yaşayır. Əldə olunmuş nailiyyətləri və qazanılmış uğurları özündə əks etdirən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 2018-ci ildə 1995-ci illə müqayisədə 63,4 dəfə artaraq 2 milyard 773 milyon 20 min manat təşkil edib. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı isə 46,3 dəfə artaraq 6101 manat olub. 1996-cı ildən 1 yanvar 2019-cu il tarixədək muxtar respublikada iqtisadi və sosial sahələrə, ümumilikdə, 9 milyard 716 milyon 919 min manat dəyərində vəsait yönəldilib. Muxtar respublikada nəqliyyatın mühüm sahələrindən olan hava nəqliyyatının inkişafı istiqamətində də ötən illər ərzində məqsədyönlü tədbirlər həyata keçirilib, yeni aerovağzal kompleksi tikilərək istifadəyə verilib, Naxçıvan Hava Limanı beynəlxalq status qazanıb.

Diqqətə çatdırılıb ki, həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq bu gün muxtar respublikanın yaşayış məntəqələrinin 98,6 faizində genişzolaqlı internet, 99,5 faizində isə simsiz internet xidmətləri göstərilir. Muxtar respublikada dördüncü nəsil mobil rabitə şəbəkəsinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. 1996-cı ildən başlayaraq ötən dövr ərzində 22 məktəbəqədər təhsil müəssisəsi, 200-dən çox ümumtəhsil müəssisəsi tikilib və ya yenidən qurulub, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilib. Muxtar respublikanın ümumtəhsil məktəblərində 1 yanvar 1996-cı il tarixdə 1 dəst kompüterdən 4050 şagird istifadə etmişdirsə, hazırda hər 10 şagird bir dəst kompüterlə təmin olunub. Ümumtəhsil məktəblərində istifadədə olan 4925 dəst kompüterin 4357-si və ya 88,5 faizi internetə qoşulub, təhsilin keyfiyyətlə aparılması məqsədilə 600-dən çox elektron lövhə quraşdırılıb. Əhalinin həyat və məişət şəraitinin yaxşılaşması, cəmiyyətin əsas özəyi kimi ailənin dövlətin xüsusi himayəsində olması demoqrafik proseslərə müsbət təsir göstərib, əhali artımının dinamikliyi təmin edilib. Belə ki, muxtar respublika əhalisinin sayı 1995-ci ilin sonu ilə müqayisədə 118 min nəfər artaraq 1 yanvar 2019-cu il tarixə 456 min nəfəri ötüb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Mircavid Tağızadə, Dövlət Statistika Komitəsinin şöbə müdiri Rza Tağıyev və "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Teymur Rzayev çıxış edərək muxtar respublikanın muxtariyyət illərində qazandığı uğurlardan, iqtisadiyyatın və sahibkarlığın inkişafından bəhs ediblər.

Sonda muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri, müəssisələr və istehsal olunan məhsullar haqqında sərgiyə baxış olub.

✍ Əli CABBAROV

## "İdeyadan başlanğıca" layihəsinə start verilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamı əsasında Maliyyə Nazirliyinin təşkilatçılığı ilə "İdeyadan başlanğıca" layihəsi çərçivəsində təlimlərə start verilib. Təlimlər yalnız Maliyyə Nazirliyinin hami olduğu maliyyə və mühasibat uçotu ixtisası üzrə deyil, bütün ixtisaslarda təhsil alan tələbələri əhatə edərək onlara öz layihələrini işləyib hazırlamaq, əsaslandırmaq və təqdim etmək sahəsində istiqamətlər verməyə xidmət edir.

Layihə ilə bağlı ilk təlim Naxçıvan Dövlət Texniki Kollecində keçirilib. Təlimdə Maliyyə Nazirliyi ilə yanaşı, digər hami təşkilatların nümayəndələri və 100-dən artıq tələbə iştirak edib. Tədbiri kollecin direktoru Asəf Ruşanov açaraq Ali Məclis Sədrinin sərəncamının əhəmiyyətindən danışıb, keçiriləcək təlimlərin tələbələr üçün faydasından bəhs edib.

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Aparat rəhbəri və nazirlik üzrə ekspert qrupunun rəhbəri Tural Şirəlizadə çıxış edərək hamiliklə bağlı görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Ali Məclis Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının gənclərin mütərəqqi ideyalarına dəstək verdiyini vurğulayıb.

Sonra Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru, ekspert qrupunun üzvü Sevinc Cabbarovanın "İdeyadan başlanğıca" mövzusunda təlimi dinlənilib. O, təqdimatında tələbələrə innovativ layihələrin işlənib hazırlanması, əsaslandırılması və təqdim olunması istiqamətində geniş məlumat verib, müxtəlif modellərlə layihələrin təhlil edilməsi, möhkəmləndirilməsi və inkişaf etdirilməsi barəsində danışıb.

Sonda tələbələrin ideyaları ilə bağlı ekspert qrupunun üzvləri ilə birlikdə ümumi fikir mübadiləsi aparılıb. Təklif olunan layihələrlə əlaqədar digər hami təşkilatların nümayəndələri də öz fikirlərini bölüşüblər.

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti*



# Qayğıkeş həkim, müdrik alim

***Bu il dünya şöhrətli alim-oftalmoloq Zərifə xanım Əliyevanın əbədiyyətə qovuşmasının 34-cü ildönümüdür. Lakin görkəmli alimin 62 illik parlaq ömür yolu bu təqvim çərçivəsinə sığmayaraq xeyirxah əməlləri sayəsində ölməzlik qazanmışdır.***

Akademik Zərifə xanım Əliyeva mənalı və zəngin həyat yolu keçmişdir. O, qədim Naxçıvan diyarında, adlı-sanlı ziyalıların vətəni olan Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdır. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdır.

Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra oftalmoloq ixtisasını seçmişdi. Buna görə də sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktik vərdişlərə yiyələnmiş, oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışlar dövründə özünə rahat yollar seçməyərək Vətənə, xalqa xeyir verə biləcək ən çətin sahələrdə əzm və iradə ilə çalışmışdır.

Ötən əsrin ortalarında Azərbaycanda traxoma xəstəliyi ocaqları genişlənir, ən çox uşaq müəssisələrini, məktəbləri əhatə edirdi. 1948-ci ildə Naxçıvan Muxtar Respublikasında 7 min nəfər traxomaya yoluxmuşdu. Onlardan 2 mindən çoxu uşaqlar idi. Yaşlıları, o cümlədən uşaqları görmə qabiliyyətinin itirilməsi kimi əzablı dövr gözləyirdi. Belə bir acınacaqlı vəziyyət təkcə Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycanda ciddi həyəcan siqnalının çalınmasına əsas yaratmışdı. Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsilini başa vuran gənc Zərifə xanım 1949-cu ildə Naxçıvanda traxomaya qarşı mübarizəyə həsr edilmiş səyyar seminarlarda iştirak etmiş, bu sahədə əldə etdiyi elmi və praktik nailiyyətlərin tətbiqinə nail olmuşdu. Gənc alim 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Həmin illərdə Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi vəzifəsində çalışan Zərifə xanım 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur.

Zərifə xanım Əliyeva "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdi. Alim-oftalmoloqların yüksək qiymətini almış dissertasiya işi oftalmologiyanın bu sahəsində ozamankı Sovetlər Birliyi məkanında ilk işlərdən idi. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmiş və o, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdir.

Çətinliklərdən qorxmayan, hər zaman ən mürəkkəb problemlərin həllinə cəhd göstərən görkəmli alim tədqiqatlarını rahat kabinetlərdə aparmırdı. O, Azərbaycanın rayonlarını kəndbəkənd gəzir, insanları maarifləndirirdi. O vaxtlar Zərifə xanım Əliyevaya dünya şöhrəti gətirən görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası Elmi-Tədqiqat İnstitutunda yox, məhz istehsal müəssisəsində – Bakı Məişət Kondisionerləri Zavodunda yaradılmışdı.

1981-ci ildə ölkəmizin tibb elmi, səhiyyə sistemi tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri olmuş, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrinin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev demişdir: ***"Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".***

Zərifə xanımın elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu sahədə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və sair əsərləri bu qəbildəndir.

Akademik Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarca elmlər doktoru və elmlər namizədinin elmi məsləhətçisi və elmi rəhbəri olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Zərifə Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində o yazırdı: *"Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?"*

Zərifə xanımın çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiya, dərslik və dərs vəsaitlərində, 160-dan çox elmi işdə, bir ixtira və 18 səmərələşdirici təklifdə öz əksini tapmışdır. Böyük alimin bütün mənalı ömrü boyu yaratdığı, lakin heç yerdə çap olunmayan bir kitabı da var: bu, heç bir dərsliyə, yaxud monoqrafiyaya sığmayan Zərifə xanım Əliyevanın həyat kitabıdır.

Zərifə xanım Əliyeva yaşadığı ömrə təkcə yaxşı həkim olmağı sığdırmamışdır. O heç kəsin dərdinə biganə qalmayan qayğıkeş İnsan, vəfalı ömür-gün yoldaşı, mehriban ana idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Zərifə xanım əsl ana, vəfalı ömür-gün yoldaşı, ailəsinə qəlbdən bağlı olan insan idi. Ailə əsrlərboyu Azərbaycanda böyük mənəvi dayaq rolunu oynamışdır. Dəyanətli şəxsiyyət və dərin zəka sahibi olan Zərifə xanım ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı kimi bu çətin, lakin şərəfli missiyanı da layiqincə yerinə yetirən, ulu öndərə etibarlı mənəvi dayaq olan Şəxsiyyət və Ana idi. Bir-birini heyrətamiz şəkildə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı müasir Azərbaycan cəmiyyəti üçün bir nümunə, milli dəyərlərimizə sədaqətin nadir örnəyidir. Akademik Zərifə xanım Əliyeva Azərbaycana Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dünya siyasətində öz nüfuzu və yeri olan İlham Əliyev kimi milli lider bəxş edən Ana kimi də unudulmazdır. Azərbaycan Prezidentinin ölkə səhiyyəsinə və elminə qayğısı, Azərbaycan xalqının sağlamlığının qorunması yolunda gördüyü işlər, ümumiyyətlə, ölkədə həyata keçirilən sosialyönümlü siyasət ulu öndərin müəyyən etdiyi siyasi xəttin uğurla davam etdirilməsinin parlaq təzahürüdür".***

*Akademik Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əvəzolunmaz alimin əziz xatirəsi daim ehtiramla yad olunur. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Naxçıvanlı müəlliflərin birgə zəhmətinin bəhrəsi olan və bu yaxınlarda işıq üzü görmüş "Tibb işçilərinin masaüstü kitabı" da akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyinə həsr edilib. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür. Akademik Zərifə xanım Əliyeva irsi həm bu günümüz, həm də gələcəyimiz üçün tükənməz, təkrarsız bir örnəkdir.*

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Ali təhsil ocağında görüş



***Fransanın Montpelyer Universitetinin NİZAMİ layihəsi üzrə koordinator Veronik Montero, layihənin meneceri Artur Resve, layihənin assistantı Ana Yanyuseviç, Erasmus+ Milli ofisinin rəhbəri Pərviz Bağırov Naxçıvan Dövlət Universitetində olublar.***

"Azərbaycanda doktorantura təhsilinin təkmilləşdirilməsi və Vahid Avropa Ali Təhsil Məkanının tələblərinə uyğun strukturlaşdırılması" (NİZAMİ) layihəsinin universitetdə icra vəziyyətinə nəzarət məqsədi daşıyan görüşdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək bildirib ki, elm və təhsilin inteqrasiyası baxımından böyük əhəmiyyətə malik olan bu layihə Avropa Komissiyasının maliyyə dəstəyi ilə həyata keçirilir. Layihə doktorant və dissertantların fəaliyyətlərinin daha şəffaf və obyektiv qiymətləndirilməsinə imkan verəcək.

Naxçıvan Dövlət Universitetinin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov universitetdə elmi istiqamət üzrə kadr hazırlığı barədə məlumat verib.

Görüşdə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Təhsil və kadrlar şöbəsinin baş mütəxəssisi, filologiya üzrə fəlsəfə doktoru Leyla Səfərova, "Naxçıvan" Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu, Naxçıvan Müəllimlər İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanov layihənin uğurlu cəhətlərindən və gələcək perspektivlərindən söhbət açıblar.

Xarici tələbələrlə iş üzrə dekan, filologiya üzrə fəlsəfə doktoru, dosent Ceyran Quliyeva Avropa İttifaqının NİZAMİ layihəsi barədə ətraflı məlumat verib.

NİZAMİ layihəsi üzrə koordinator Veronik Montero, layihənin meneceri Artur Resve çıxışlarında bildiriblər ki, layihənin əsas məqsədi Azərbaycanda doktorantura təhsilinin mövcud vəziyyəti və Avropanın doktorantura təhsili ilə müqayisəli təhlilinin müəyyənləşdirilməsi, doktorantura təhsilinin təşkili qaydalarının yenidən hazırlanması, ixtisas təsnifatının Avropada mövcud olan təsnifata uyğunlaşdırılmasıdır.

Erasmus+ Milli ofisinin rəhbəri Pərviz Bağırov bildirib ki, 2015-ci ildə icrasına başlanılan layihənin ölkə üzrə əlaqələndiricisi Təhsil Nazirliyidir. 2020-ci ildə yekunlaşacaq layihənin gələcək perspektivlərə imkan yaradacağı vurğulanıb.

Sonra qonaqlar universitetin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində olublar.

**Səadət ƏLİYEVA**

# "İmadəddin Nəsimi – 650" mövzusunda elmi konfrans keçirilib



*"Naxçıvan" Universitetində keçirilən "Nəsimi həftəsi" çərçivəsində ali təhsil müəssisəsində "İmadəddin Nəsimi – 650" mövzusunda elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi ilə əlaqədar Naxçıvanda da Nəsiminin həyat və yaradıcılığı ilə bağlı silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, universitetdə "Nəsimi həftəsi"nin uğurla keçirilməsi ölməz sənətkarın həyat və yaradıcılığının, ideallarının tələbələrə tanıdılması və təbliğ edilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Sonra universitetin Azərbaycan dili və ədəbiyyat kafedrasının dosentləri Arifə Zeynalovanın "Nəsimi ədəbi dilində məcazlar və onun işlənmə məqamları" və Aypara Behbudovanın "Azərbaycan şeirinin Nəsimi zirvəsi" mövzularında çıxışları dinlənilib.

Daha sonra tələbələr Nəsimi qəzəllərini bədii qiraət ediblər.

Sonda "Nəsimi həftəsi" çərçivəsində keçirilən tədbirlərdə fəal olan və "Nə? Harada? Nə zaman?" intellektual oyununda qalib olmuş tələbələr mükafatlandırılıblar.

Qeyd edək ki, "Nəsimi həftəsi" çərçivəsində universitetdə "Nəsimi" tarixi filminin nümayişi, "Nə? Harada? Nə zaman?" intellektual oyunu, Xalq şairi Qabilin "Nəsimi" poemasının müzakirəsi, tələbələrin Culfa rayonundakı Xanəgah Abidə Kompleksinə ekskursiyası da keçirilib.

**Seyfur HACIMURADOV**



# Oxucu məktubları



Minnətdarlıq

## Naxçıvanda xalq-ordu birliyi, Vətənə, millətə bağlılıq gördüm



*Hörmətli redaksiya!*

Bu qədim diyara əsgəri xidmətini Naxçıvanda keçirən oğlumu görmək üçün gəlirdim. Culfa gömrük məntəqəsindən keçib Naxçıvan torpağına qədəm qoyan ilk andan buradakı gözəllik diqqətimi cəlb etdi. Rahat, müasir yollarla şütüyən maşında ətrafın gözəl mənzərəsini seyr edə-edə Naxçıvan şəhərinə çatdıq. Andiçmə mərasimindən sonra "açıq qapı" günündə iştirak etdik, hərbi hissədə yaradılan şəraitlə tanış olduq. Ərzaq və geyim nümunələri sərgisinə baxdıq, əsgər yataqxanalarına və yeməkxanasına baş çəkdik. Burada xalq-ordu birliyi, Vətənə, millətə bağlılıq gördük.

Övladımızı özümüzlə qonaq olduğumuz evə apardıq. Hərbi hissədə gördüklərim qəlbimə sakitlik gətirmişdi. Amma oğlumun dilindən eşitdiklərim bir ana, Azərbaycan qadını kimi könlümü açdı. Oğlum buradakı əsgəri-məişət şəraitindən, komandir heyətinin onlara qayğı ilə yanaşmalarından, yeməkxanadakı qadınların bir ana diqqəti ilə əsgərlərə yemək hazırlamalarından ağızdolusu danışırdı.

Səmimiyyətlə etiraf edim ki, səliqə-sahman, gözəllik, sabitlik, qonaqpərvərlik deyəndə ilk olaraq Naxçıvan yadıma düşəcək. Hər yerdə insanların daşıdığı vəzifələrə məsuliyyət hissini gördük. Özümü 30 ilə yaxındır, blokadada yaşayan bir yurdda yox, sanki Avropanın mərkəzində hiss etdim. Burda yaşamağa nə var ki? Şərurdan tutmuş ta Ordubada qədər abadlıq, gözəllik vardır.

Əsgər balamı Vətənin bu qədim, mərd guşəsinə əmanət edib arxayınlıqla ayrıldım. Çünki burada olduğum üç gün ərzində gördüm ki, alınmaz qalamız Naxçıvan əmin, mərd əllərdədir. Vətəni sevən insanların əllərində.

**Firəngiz HƏSƏNOVA**
*Ağcabədi rayonu,*
*Yuxarı Qıyamadınlı kəndi*

Razılıq

## Cənnət görmək istəyən Naxçıvana gəlsin!



*Hörmətli redaksiya!*

Bu gün Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı quruculuq işləri aparılır, şəhər və rayonlarda müasir binalar tikilir. Doğma diyarımızda həyata keçirilən genişmiqyaslı quruculuq işləri hər il uğurla davam etdirilir. Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzləri və ucqar kəndlər də müasirləşir, yeni yollar, körpülər salınır, məktəb binaları, səhiyyə ocaqları, kənd və xidmət mərkəzləri tikilir, lazımi texniki təminat və müasir infrastruktur yaradılır. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülür. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişib. İndi təkcə Naxçıvan şəhərinin yox, bütün rayon və kəndlərin şüşə kimi hamar yolları, müasir inzibati binaları, abad məhəllələri, yaşayış massivləri, bərpadan sonra yeni görünüş alan tarixi abidələri, yaşıl libasa, gül-çiçəyə bürünən park və xiyabanları vardır.

Bu gözəlliklər qədim Nuh yurdunu qonaqlar üçün daha da cəlbedici, muxtar respublika sakinləri üçün isə yaşanılacaq yer edir. Bütün bunları burada yaşayan və qonaq gələn hər kəs görür, duyur və etiraf edir. İllər öncə bu şəhərin siması elə idi ki, insan uzaqda yaşayan hansısa yaxınını buraya qonaq çağırmağa çəkinirdi. İndi isə rahatlıqla "Cənnət görmək istəyən Naxçıvana gəlsin!" – deyə bilirik.

**Elnur MƏMMƏDOV**
*Naxçıvan şəhər sakini*

## Vətənə xidmət etməkdən qürur duyuram!



*Hörmətli redaksiya!*

Ali təhsilimi bitirdikdən sonra Kürdəmir rayonundan həqiqi hərbi xidmətə çağırılmışam. Tələbəlik illərində bir neçə yoldaşım Naxçıvandan olduğu üçün bu qədim yurd haqqında məlumatım var idi. Amma heç ağlıma da gəlməzdi ki, hərbi xidməti keçmək üçün buraya gələrəm. Artıq altı aydır ki, bu qədim igidlər yurdunda əsgəri xidmətdəyəm. Vətənimizin bu dilbər guşəsində olmaq, tarixboyu alınmaz qala olan Naxçıvanı tanımaq qürurvericidir. Burdakı nizam-intizam, təmizlik, ən əsası isə qayğıkeşlik insana öz evindəki kimi rahatlıq verir.

Hərbi hissəmizdəki şəraitə isə söz ola bilməz. Burada olduğum altı ay ərzində gördüklərimdən belə qənaətə gəlirəm ki, muxtar respublikada Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazası gündən-günə gücləndirilir. Yeni hərbi hissələr istifadəyə verilir, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması diqqətdə saxlanılır.

Ötən ay xidmət etdiyim hərbi hissədə Səhra Təlim Mərkəzi istifadəyə verilib, əsgərlərin və zabitlərin peşəkarlığının artırılması üçün şərait yaradılıb. Burada yaradılan düşərgədə şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması yüksək səviyyədə təşkil olunub. Bu da istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verib. Görülən işlər isə hər birimizdə böyük ruh yüksəkliyi yaradır. Müasir ordumuzun qurucusu ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Bu günümüzün gəncləri özlərini xoşbəxt sanmalıdırlar ki, onlara doğma Vətənimizin ordusunda xidmət etmək nəsib olub".*** Mən də özümü xoşbəxt hiss edirəm. Çünki müstəqil dövlətimə, gözəl Vətənimə xidmət edirəm.

**Orxan SƏMƏDOV**
*"N" hərbi hissənin əsgəri*

## Dövlətimizə minnətdarıq

***Salam, hörmətli redaksiya!***

***Bu məktubu sizə Kəngərli rayonunun Qıvraq qəsəbəsindən yazıram. Bildiyiniz kimi, bu gün muxtar respublikamız hərtərəfli inkişaf edir. Şəhər və rayonlarımız, kəndlərimiz yenidən qurulur, abadlaşır, gözəlləşir. Sakini olduğumuz Kəngərli rayonu da indi müasirliyi, abadlığı ilə göz oxşayır. Hamımızın bildiyi kimi bu il Kəngərli rayonunun yaradılmasının 15-ci ildönümü tamam oldu. Bu münasibətlə cari il martın 7-də rayonun yaradılmasının 15 illiyi qeyd edildi, Qıvraq qəsəbəsində yeni yaşayış binası istifadəyə verildi. Həmin binada bizim ailəmiz də yeni mənzillə təmin olundu.***



Məlumat üçün qeyd edim ki, mən əvvəllər polis orqanlarında çalışmışam. Lakin xidməti vəzifəmi yerinə yetirərkən sağlamlığımı itirmişəm. Hazırda II qrup əliləm. Ailəliyəm, 3 övladım var. Hər şeydən əvvəl bildirim ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda sağlamlıq imkanları məhdud insanlara, o cümlədən suverenliyimizin və ərazi bütövlüyümüzün müdafiəsi zamanı əlil olmuş şəxslərə hərtərəfli dövlət qayğısı göstərilir. Onların müalicəsi üçün lazımi addımlar atılır, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu yaxınlarda bizim ailənin də yeni yaşayış binasında mənzillə təmin olunması Vətənin müdafiəçilərinə dövlət qayğısının əyani göstəricisidir. Xalqımızın milli bayramı olan Novruz bayramı ərəfəsində yeni mənzilə sahib olmağımız ailə üzvlərimizi xeyli sevindirdi. Bu əziz bayramı öz ocağımızda, isti yuvamızda ikiqat sevinclə, könül xoşluğu ilə qeyd etdik. Buna görə qəzetiniz vasitəsilə ailəmiz adından dövlətimizə minnətdarlığımızı bildiririk.

**Elməddin ALLAHVERDİYEV**
*Kəngərli rayon Qarabağlar kənd sakini, II qrup əlil*

## Övladıma yüksək qayğı göstərilib



*Hörmətli redaksiya!*

Üç övladım var. Qızım Nurgülün sağlamlıq imkanları məhduddur. Ona görə də o, öz yaşıdları ilə birgə məktəbə gedə, təhsil ala bilmir. Biz hər zaman dövlətimizin qayğısını üzərimizdə hiss etmişik. Belə ki, onun ölkə xaricində tibbi müayinəsi təşkil olunub. Həmçinin Naxçıvan Uşaq Bərpa Mərkəzində də mütəmadi olaraq fizioterapiya müalicəsi davam etdirilir.

Yaxın günlərdə ailəmizin sevincinə səbəb olacaq daha bir hadisə baş verdi. Övladım distant təhsilə cəlb edildi. Bu da məktəbə gedə bilməyən, hərəkət qabiliyyəti məhdud olan qızımın təhsil almasına imkan yaratdı. Artıq qızım onlayn təhsil vasitəsilə müəllimin verdiyi tapşırıqları internet üzərindən izləmək, tapşırıqları yerinə yetirmək, imtahan suallarını cavablandırmaq imkanına malik olacaq. Nurgülün təhsilə cəlbi onun gələcəyi üçün imkanlar açıb. Onu da deyim ki, qızım dərs ləvazimatları, tədris vəsaitləri, məktəbli geyimi ilə təmin olunub. Sağlamlıq imkanları məhdud övladıma göstərilən qayğı ailəmizə mənəvi dayaq oldu.

Mən ailəm və öz adımdan hər bir sakinə ata qayğısı ilə yanaşan muxtar respublika rəhbərinə yaradılan şəraitə görə minnətdarlığımı bildirirəm.

**Elmar QULİYEV**
*Sədərək rayonu*

## Fövqəladə hallara hazırlıq diqqət mərkəzindədir

2019-cu ilin birinci rübündə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası təmin edilmişdir. Nazirliyin xilasediciləri və yanğınsöndürənləri "Daimi hazırlıq" mərhələsində saxlanılmış, şəxsi heyətin döyüş və peşə hazırlığının artırılması məqsədilə struktur qurumlarda taktiki-xüsusi təlimlər keçirilmişdir. Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi təlimlərdə, toplantılarda və çöl-səhra çıxışlarında nazirliyin xilasediciləri və yanğınsöndürənləri iştirak etmişdir. Xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin müxtəlif istiqamətlərdə yürüşləri keçirilmiş, xidməti və əməliyyat minik avtomobillərinin texniki sazlığı yoxlanılmışdır.

İstehsalat müəssisələrində texniki təhlükəsizliyin təmin olunması, hadisələrin qarşısının vaxtında alınması məqsədilə 31 lift texniki müayinədən keçirilmiş, 4 nəqliyyat vasitəsi, 1 təhlükə potensiallı obyekt, 8 qurğu dövlət reyestrində qeydiyyata alınmış, 1 təhlükə potensiallı obyekt, 29 qurğu dövlət reyestrində təkrar qeydiyyatdan keçirilmiş, 29 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyin təmin edilməsi ilə bağlı yoxlama, radiasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə 15 obyektdə monitorinq keçirilmiş, 8 müəssisədə 87 texnoloji nəqliyyat vasitəsi texniki baxışdan, 4 qurğu texniki müayinədən keçirilmiş, 19 qurğuya sertifikat verilmişdir. Mülki müdafiə işinin təşkili ilə bağlı müxtəlif kateqoriya üzrə 328 nəfər rəhbər, komandir-rəis heyətinin mülki müdafiəyə və fövqəladə hallara hazırlanması təmin edilmiş, 89 obyektdə 2292 nəfərin iştirakı ilə maarifləndirici tədbir və qrup məşğələsi, 5 müəssisədə konfrans keçirilmişdir. Qıvraq qəsəbəsində yeni istifadəyə verilmiş yaşayış binasının zirzəmisində mülki müdafiə səfərbərlik ehtiyat anbarı yaradılaraq əhalinin sayına uyğun fərdi mühafizə vasitələri yığılmış, rayonlarda mülki müdafiə təyinatlı zirzəmilərin vəziyyəti və 2-ci qrup fərdi mühafizə vasitələrinin saxlanılma şəraiti yoxlanılmışdır.

Muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə 612 obyektdə əsaslı, 578 obyektdə nəzəri, 91 obyektdə məqsədli yoxlamalar keçirilmiş, 308 dövlət yaşayış binasının 5187 mənzilində yanğın-texniki müayinələr aparılmış, müşahidə olunan çatışmazlıqlar aradan qaldırılmışdır. Daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı 109 obyektdə mülki məsuliyyətin icbari sığortası həyata keçirilmişdir.

Muxtar respublikada 42 tikinti obyektinin ərazisində qazılmış mühəndis-geoloji kəşfiyyat quyularından qrunt nümunələri götürülmüş, tikiləcək və yenidən qurulacaq 30 obyektin işçi və layihə sənədlərinin ekspertizadan keçirilməsinə hazırlıq işləri aparılmışdır. Tikintisi başlayacaq 67 obyektdə dövlət nəzarətinin fərdi qaydada aparılması üçün "Tikintidə Dövlət Nəzarəti Jurnalı"nın açılması təmin edilmiş, Babək və Kəngərli rayonlarında tikiləcək 19 fərdi yaşayış evinin layihəsi uçota alınmışdır. İstehsal olunan tikinti materiallarının mütləq şəkildə sınaqdan keçirilməsi ilə bağlı 25 sayda müxtəlif nümunənin laboratoriya şəraitində sınaqları aparılmışdır. Tikintisi başa çatdırılmış 14 obyektə "İstismara hazırlıq aktı" verilmişdir.

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti*

# Daşlara həkk olunub möhtəşəm yaddaşımız



*Beş minillik tarixə malik olan Naxçıvan,*
*İşğal təhlükəsiylə üzləşib zaman-zaman.*
*Qoruyubdur igidlər şəhərini, kəndini,*
*Əlimizdən getməyib torpağımız, daşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

*Otuz ilə yaxındır müstəqildir, azaddır,*
*Qartala həyat verən böyük qoldur, qanaddır.*
*Təntənəli sürətdə qeyd olunur ad günü,*
*Doxsan beşi adlayır muxtariyyət yaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*



*Bu torpağa bir vaxtlar dəyib Nuhun qədəmi,*
*Onunçün Haçadağı haçalayıbdır gəmi.*
*Təsdiqini tapıbdır neçə illərdən sonra,*
*Araşdırıb öyrənib elmi əməkdaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

*Əlincə mübarizdir, Gülüstansa möhtəşəm,*
*Bərpadan sonra onlar alıblar yeni görkəm.*
*Düşmən bu gözəlliyə hiyləgərcə yanaşıb,*
*Rəğbətlə alqışlayıb dostumuz, qardaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*



*Möminə xatın qadın ismətinə qiymətdir,*
*İmamzadə türbəsi məsuma məhəbbətdir.*
*Yurdumun hər yerində abidələr iz salıb,*
*Qədimliklə yanaşı səsləşir çağdaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

*Dövlətçilik simvolu sayılır Xan sarayı,*
*Əshabi-Kəhf and yeri, məzlumların harayı.*
*Gəmiqaya rəsmləri qədim həyat tərzidir,*
*Saymaqla tükənməyir tarixi sirdaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

*Sədərək alınmaz qala, qəhrəmanlıq dastanı,*
*Dillərdə əzbər olub oğulların ad-sanı.*
*Günnütdən sonra zəfər Kərkidə çalınacaq,*
*Qələbə qabaqdadır, bitməyib savaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

*Qızıldan qiymətlidir bu torpağın sərvəti,*
*Badamlının, Sirabın dünyada çox şöhrəti.*
*Yer altında gizlənib xeyli ləl-cəvahiri,*
*Muzeylərdə qorunur mənəvi daş-qaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

*Açıq səma altında bir muzeydir Naxçıvan,*
*Əsrlərdir bu yurdda ayaq saxlayıb karvan.*
*Duzdağın nemətləri gəzib bütün dünyanı,*
*Heyran edib qonağı səhəngimiz, kaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*



*Bərqərar edilibdir sabit, əmin-amanlıq,*
*Yaxşı yaşam naminə qurulub güzəranlıq.*
*Günü-gündən dəyişir kəndimiz, şəhərimiz,*
*Yaraşıqlı görkəmin alıbdır dam-daşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

*Aparılan siyasət göstərir bəhrəsini,*
*Düşmən qıla bilməyir başının çarəsini.*
*Dünyaya agah olub qüvvətimiz, gücümüz,*
*Günü-gündən çoxalır yaxın tərəfdaşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

*Naxçıvanda böyüyür quruculuq, inkişaf,*
*Çoxu paxıllığından bunu etmir etiraf.*
*Gündəmə gəlmək üçün səhv yola əl atırlar,*
*Görünür hələ vardır siyasətdə naşımız,*
*Daşlara həkk olunub möhtəşəm yaddaşımız.*

**✍ Nail ƏSGƏROV**

***Bu şeir "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

## "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 113-cü illiyi qeyd edilib

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 113-cü illiyinə həsr olunmuş "Molla Nəsrəddin" ədəbi məktəb yaratmış ilk mətbu orqandır" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova açaraq qeyd edib ki, Azərbaycan mətbuatı tarixində əvəzsiz rol oynamış, XX əsr ictimai fikir və ədəbiyyat tariximizdə yeni dövr açmış, klassik irsimizin dəyərli abidələrindən biri, təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərq ölkələrində siyasi satiranın ilk qaranquşu "Molla Nəsrəddin" jurnalı və onun nəşri tarixini öyrənməyin böyük əhəmiyyəti vardır.

Sonra Azərbaycan Respublikasının Əməkdar müəllimi, dosent Kamal Camalov və Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, dosent Nəzakət İsmayılovanın çıxışları dinlənilib.

Tədbirin bədii hissəsində muzey əməkdaşları "Molla Nəsrəddin" jurnalında çap olunmuş felyetonları bədii qiraət ediblər.

Sonda tədbir iştirakçıları Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalına həsr olunmuş guşəyə baxıblar.

**✍ Pərviz HACILI**

## Əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Sədərək rayonunda növbəti əmək yarmarkası keçirilib.

Tədbirdə çıxış edən rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikamızda yeni iş yerlərinin açılmasına, əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə öz töhfəsini verir.



Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Səfər Hüseynov vurğulayıb ki, muxtar respublikamızda əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi istiqamətində mühüm işlər görülür. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, sərhəd bölgəsi olan Sədərək rayonunda da əhalinin məşğulluğu təmin olunub, ötən dövrdə bu sahədə uğurlu nəticələr əldə edilib.

Sonra tədbir iştirakçıları əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. 8 təşkilatdan 86 boş iş yerinin çıxarıldığı tədbirdə 13 nəfərə işə göndəriş verilib.

Sakinlər qeyd ediblər ki, əmək yarmarkalarının keçirilməsi işaxtaran insanlar üçün böyük imkanlar yaradır. Onlar yarmarkanın təşkilində əməyi olanlara minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Gənclər arasında açıq birincilik



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında gənclər arasında süni divara dırmanma üzrə muxtar respublika açıq birinciliyi keçirilib. Birincilikdə 100-ə yaxın idmançı mübarizə aparıb.

Yarışın yekun nəticəsinə əsasən oğlanların mübarizəsində Abbas Seyidov qalib adını qazanıb. Digər iki pillədə Emin Həziyev və Behbud Məhərrəmov qərarlaşıblar.

Qızların mübarizəsində isə Nazlıcan Çakır hamıdan güclü olub. Fatimə Abbaslı ikinci yerlə kifayətlənib.

Sonda qalib idmançılar, eyni zamanda birincilikdə fərqlənən idmançılara diplom, fəxri fərman və hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Qalib şahmatçılar müəyyən olunub

Naxçıvan Şahmat Mərkəzində start verilən "Şahmat beyinin gimnastikasıdır" devizi altında Naxçıvan şəhər ümumtəhsil məktəblərinin VII-VIII sinif oğlan şagirdləri arasında şahmat üzrə şəxsi birinciliyə yekun vurulub.

Naxçıvan Şəhər Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsi və Uşaq-Gənclər Şahmat Məktəbinin birgə təşkil etdiyi yarış İsveçrə sistemi üzrə 5 turdan ibarət olub.

Yarışın yekun nəticəsinə əsasən Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdi Aydın Bəbirli bütün rəqiblərini üstələyərək qalib olub. 17 nömrəli tam orta məktəbin şagirdləri Niyaz Sultanov və Samiq



Orucov isə müvafiq olaraq ikinci və üçüncü yerlərlə kifayətləniblər.

Sonda qaliblərə təşkilatçıların diplom və fəxri fərmanları təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Xətai məhəlləsi döngə 13, ev 12-də qeydiyyatda olan Həsənova Hürnüsə Zalı qızının adına olan MH-0025352 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 262